**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**

**ƏMR**

**14 aprel 2025-ci il** **3-28/3-1-114/2025**

**"İmmunlaşdırma həftəsinin keçirilməsi barədə"**

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən hər il Avropa regionunda "İmmunlaşdırma həftəsi" keçirilir və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi də bu tədbirə qoşulur.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü yarımbəndini rəhbər tutaraq, respublikada 2025-ci ildə "İmmunlaşdırma həftəsi"nin keçirilməsi məqsədilə

**əmr edirəm:**

1. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsinə əsasən 2025-ci ilin 27 aprel-3 may tarixlərində respublikanın bütün şəhər və rayonlarında "İmmunlaşdırma həftəsi" keçirilsin.

2. Təşkilatı-hüquqi formasından asılı olmayaraq, respublikanın bütün tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

2.1. hər hansı səbəblərə görə immunlaşdırmadan kənarda qalan uşaqların siyahısı hazırlansın və "İmmunlaşdırma həftəsi" ərzində onların immunlaşdırmaya cəlb edilməsi təmin edilsin;

2.2. immunlaşdırma tədbirləri barədə əhali arasında maarifləndirmə işinin aparılması təmin edilsin;

2.3. "İmmunlaşdırma həftəsi"nin nəticələri haqqında məlumatlar 12 may 2025-ci il tarixinədək ərazi üzrə gigiyena və epidemiologiya mərkəzinə təqdim edilsin.

3. Respublikanın şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın:

3.1. uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki köməkliyin göstərilməsi təmin edilsin;

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İmzalayan şəxs: Teymur Musayev / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/yxcTD%2Byy%2FFk%2Fq1fhvlu3hqhPk6TrGPuMpGyOoWhDnB8%3D

3.2. “İmmunlaşdırma həftəsi”nin nəticələri haqqında məlumatlar 23 may 2025-ci il tarixinədək Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim edilsin.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Baş direktoru S.Həsənovaya tapşırılsın:

4.1. Respublikada “İmmunlaşdırma həftəsi”nin həyata keçirilməsi məqsədilə müvafiq təşkilatı tədbirlər görülsün;

4.2. “İmmunlaşdırma həftəsi"nin yekun nəticələri haqqında məlumatlar 30 may 2025-ci il tarixinədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. Media və kommunikasiya şöbəsinin müdiri P.Abubəkirova tapşırılsın ki, “İmmunlaşdırma həftəsi” barədə kütləvi informasiya vasitələrində müvafiq məlumatların yayılması təmin edilsin.

6. İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri N.Mürsəlovaya tapşırılsın ki, bu Əmrdən irəli gələn məsələlərin həlli təmin edilsin.

7. Sənədlərlə iş və vətəndaş müraciətləri şöbəsinin müdiri S.Orucovaya tapşırılsın ki, bu Əmrin surətinin aidiyyəti üzrə göndərilməsi təmin edilsin.

8. Əmrin icrasına nəzarət nazir müavini Nadir Zeynalova həvalə edilsin.

**Nazir** **Teymur Musayev**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İmzalayan şəxs: Teymur Musayev / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/yxcTD%2Byy%2FFk%2Fq1fhvlu3hqhPk6TrGPuMpGyOoWhDnB8%3D